# Azərbaycan Prezidentinin "Əl-Ərəbiyyə" telekanalına müsahibəsi Qazaxıstan mediasında

Qazaxıstanın informasiya resursları Azərbaycan Prezidenti İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına müsahibəsini geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, "Kazinform" beynəlxalq informasiya agentliyi "Azərbaycan Ermənistanla sülhün bağlanması üçün əsas şərtləri açıqlayıb" sərlövhəli məqalə dərc edib.


tengrinews.kz/kazakhstan_news/schastyu-prizemlilsya-kazahstane-ilham-aliev-krushenii-azal-579194/

К счастью, он приземлился в Казахстане - Ильхам Алиев о крушении AZAL

Асель Сатаева
Выпускающий редактор

33327 25

Реклама

TENGRI EDU

Новый обязательный предмет может появиться в школах Казахстана

Agentlik dövlətimizin başçısının müsahibəsindən sitat gətirərək qeyd edir ki, Azərbaycan danışıqlara təşəbbüs göstərib və sülh sazişi layihəsini ilk hazırlayan tərəf olub. Ağ Evdə paraflanan sənəd dövlətlərarası münasibətlərin tənzimlənməsinə Azərbaycanın baxışını əks etdirir.

Məqalədə Prezident İlham Əliyevə istinadla vurğulanır ki, sazişin tam imzalanması hələlik bir fundamental məsələyə - Ermənistan Konstitusiyasındakı Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan müddəaya görə mümkün deyil.

Qazaxıstanın "Inbusiness.kz", "Tengrinews.kz", "Newtimes.kz" media orqanlarının dərc etdiyi məqalələrdə AZAL-a məxsus təyyarənin Aktau yaxınlığında qəzaya uğraması ilə bağlı Azərbaycan Prezidentinin fikirləri yer alıb. Materiallarda dövlətimizin başçısına istinadla qeyd olunur ki, Azərbaycan mülki təyyarəsinin Rusiya qüvvələri tərəfindən vurulması və Rusiya rəsmilərinin hadisəyə reaksiyası Azərbaycanda böyük məyusluq və narazılıq yaradır. Prezident İlham Əliyevin aşağıdakı sözləri sitat gətirilir: "Yalnız pilotların peşəkarlığı və cəsarəti təyyarəni yerə endirməyə imkan verdi. Xoşbəxtlikdən təyyarə Rusiyada deyil, Qazaxıstanda eniş etdi".


inform.kz/ru/azerbaydzhan-nazval-klyuchevie-usloviya-dlya-zaklyucheniya-mira-s-armeniey-5ee065

22:45, 27 Август 2025 | GMT +5

Азербайджан назвал ключевые условия для заключения мира с Арменией

Президент Азербайджана Ильхам Алиев озвучил главные условия, при выполнении которых возможно окончательное подписание мирного соглашения с Арменией, передает собственный корреспондент агентства Kazinform со ссылкой на сайт главы Азербайджана.

**Азербайджан может начать поставки газа на Ближний Восток через Арабский газопровод. Об этом заявил президент Азербайджана Ильхам Алиев в интервью каналу «Аль-Арабия»**, передает ArbatMedia.

По словам Алиева, выход на Ближний Восток с природными ресурсами Азербайджана является для страны первым опытом. Однако Алиев убежден, что Баку сможет увеличить объём поставок газа в Сирию, а также поставлять газ в другие страны через Арабский газопровод или другими способами, например, через практику свопов. Эта система предусматривает международное трейдерство Азербайджана, поставляя газ на один рынок, а на Ближний Восток отправлять эквивалентный объём газа, но уже от другого

"Arbatmedia.kz" nəşri dövlətimizin başçısına istinadla yazır ki, Azərbaycan Yaxın Şərqə qaz tədarük edəcək. Materialda qeyd olunur ki, Azərbaycan Prezidenti müsahibəsində vurğulayıb: "Sözsüz ki, təbii ehtiyatlarımızla Yaxın Şərqə daxil olmaq bizim üçün ilk təcrübədir".

Daha sonra diqqətə çatdırılır ki, Azərbaycanın dövlət başçısının əminliklə bildirdiyinə görə, Bakı Suriyaya qazın həcmini artıra, həmçinin Ərəb Qaz Kəməri, yaxud başqa mübadilə əməliyyatları vasitəsilə digər ölkələri qazla təchiz edə bilər.

Azərbaycan.- 2025.- 29 avqust (№182).- S.4.